Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsi üzrə Çaxırlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Gözəlov Ağahüseyin Səfər oğlunun və Masallı rayonu Çaxırlı kənd sakini Abdullayev Siyasət Səfər oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2014-cü il tarixli 78 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 29 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsi üzrə Çaxırlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Gözəlov Ağahüseyin Səfər oğlunun və Masallı rayonu Çaxırlı kənd sakini Abdullayev Siyasət Səfər oğlunun 28 dekabr 2014-cü il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdırarkən aşağıdakıları **müəyyən etdim:**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsi üzrə Çaxırlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Gözəlov Ağahüseyin Səfər oğlu və Masallı rayonu Çaxırlı kənd sakini Abdullayev Siyasət Səfər oğlu 2014-cü il dekabrın 28-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsinin 23 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrini mübahisələndirmiş, pozuntulara yol verildiyini və səslərin düzgün hesablanmadığını bildirmiş, səslərin yenidən sayılmasını və müvafiq tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

Göründüyü kimi, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Araşdırma zamanı həmçinin belə qənaətə gəlinmişdir ki, qeydə alınmış namizəd A.S.Gözəlovun və S.S. Abdullayevin şikayəti səsvermənin nəticələrinin mübahisələndirildiyi 23 saylı seçki məntəqəsində səslərin təkrar hesablanması hissəsində qismən təmin edilməlidir.

Beləliklə, 70 saylı Masallı şəhər seçki dairəsi üzrə Çaxırlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd A.S.Gözəlovun və Masallı rayonu Çaxırlı kənd sakini S.S. Abdullayevin şikayəti qismən təmin edilməli, səsvermənin nəticələrini mübahisələndirdikləri seçki məntəqəsində səslərin təkrar hesablanması və iddia olunan qanun pozuntularının araşdırılması üçün müraciət aidiyyəti üzrə 70 saylı Masallı şəhər seçki dairə seçki komissiyasına göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **r ə y ə g ə l d i m** :

1. 70 saylı Masallı şəhər seçki dairəsi üzrə Çaxırlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Gözəlov Ağahüseyin Səfər oğlunun və Masallı rayonu Çaxırlı kənd sakini Abdullayev Siyasət Səfər oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2014-cü il tarixli 78 saylı şikayəti qismən təmin edilsin, müraciət 70 saylı Masallı şəhər seçki dairəsinin 23 saylı seçki məntəqəsində səslərin təkrar hesablanması və qanun pozuntularının araşdırılması üçün həmin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**